UOT 005-027.21
DOI:10.30546/3006-0346.2024.5.83.060

# BİZNES SİSTEMİNDƏ İNNOVASİYALAR ÜÇÜN İMKANLAR VƏ PROBLEMLƏR

**ORXAN ŞÜKÜROV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, dissertant*

*E-mail: orxan@inbox.ru*

## Giriş

Azərbaycan kontekstində biznes sistemi ilə innovasiya iqtisadiyyatı arasında əlaqələrin inkişafı xüsusi maraq doğurur. Tarixən ölkə iqtisadiyyatı böyük dövlət şirkətlərinin üstünlük təşkil etdiyi neft-qaz sektorundan çox asılı olub. Bir çox ölkələrin təcrübəsi göstərir ki, çox vaxt sıçrayışlı innovasiyaların mənbəyinə məhz kiçik şirkətlər çevrilir. Azərbaycan üçün innovativ biznesə dəstək iqtisadiyyatın şaxələndirilməsi və neft-qaz sektorundan asılılığın azaldılması üçün əsas ola bilər. Bununla belə, həqiqətən innovativ iqtisadiyyatın yaradılması çoxşaxəli özəl sektorun, xüsusən də yüksək texnologiyalı sənayenin inkişafını tələb edir. Sənayenin ərazi təşkilinin mütərəqqi formalarının inkişafı Azərbaycanın müasir sənayesinin innovasiya yönümlü, rəqabət qabiliyyətli inkişafı və modernləşməsi üçün müstəsna əhəmiyyət kəsb edir [5]. Texnoparkların yaradılması, vençur maliyyələşdirmənin inkişafı, innovativ müəssisələrə vergi güzəştlərinin verilməsi, startaplara dəstək və s. bu kimi stimulların verilməsinə baxmayaraq innovativ biznes üçün əlverişli mühit yaratmaq üçün əlavə səylər tələb olunur. Bu isə öz növbəsində innovativ iqtisadiyyatın formalaşmasına biznes sistemin təsirinin müxtəlif istiqamətlərini araşdırmağı zəruri edir.

İnnovativ inkişafın istiqamətləri, onun aspektləri və iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına təsiri bir çox alim və tədqiqatçıların daim diqqət mərkəzində olub. İqtisadi ədəbiyyatda bu məsələlər Shumpeter, Nelson, Winter, Audretsch, Feldman, Hall, Rosenberg, Chesbrough, Baumol, M.Porter, Solow, Freeman, Lundvall Furman, Porter, Stern Cohen, Levinthal, Granstrand, Holgersson, Mazzucato, Acemoglu, Robinson, Henry Itzkowitz, Loet Leydesdorff, Gertler, Saxenian, Romer, Erik von Hippel, Griffith və s. kimi alimlərin əsərlərində nəzərdən keçirilmişdir. Onların tədqiqatları iqtisadi sistemin rəqabət qabiliyyətinin artırılmasının müxtəlif aspektlərinə və onun nəzəri və metodoloji əsaslarının öyrənilməsinə həsr edilmişdir.

Rusiya iqtisadiyyat elmində innovativ inkişaf və biznes sisteminin innovasiyalara təsiri problemləri L.Abalkin, A.A. Bıkova, E.Y. Stepanova, Babiç, Kremlev, Korçaqin, Pyankov, N.V, Şirokova E.Y, Leonidova E.Q, E. Yasin, V. Gerasimov, Jiç, Q.İ., Həmidov, Q.S, Truxlyayeva A.A., Kançerov, V.V. Monastırskiy, Vinokurov, Nanakina Y.S, Belyakova Q.Y, Çayran Y.A, İvanov V.V., Malineçkiy Q.Q, Rumyançev, Uşviçkiy, Petruxina, Prixaç, Şumayev V.A, Divuyeva N.A, Lukaşeva N.A və s. tərəfindən araşdırılmışdır. Onların işi inkişaf etməkdə olan ölkələrdə innovasiya proseslərinin xüsusiyyətlərinin dərk edilməsinə mühüm töhfə verib.

İnnovasiya potensialının tənzimlənməsi problemləri həm yerli, həm də xarici iqtisadçıların tədqiqatlarında geniş şəkildə işıqlandırılır. Azərbaycanda innovasiya fəaliyyəti çərçivəsində tədqiqatlar və onun iqtisadiyyatın, biznesin rəqabət üstünlüklərinin artırılmasına təsiri probleminin tədqiqinə A.A. Nadirov, Z.A. Səmədzadə, İ. Alıyev, Ə.X. Nuriyev, T.A. Quliyev, A.Ş. Şəkarəliyev, A.Abbasov, A.Musayev, K. İmanov, V.Qasımlı, M.Əliyev, M.Atakişiyev, Q.Süleymanov, A.Hüseynova və başqa Azərbaycan alimlərinin əsərləri həsr edilmişdir. Onların işi Azərbaycan iqtisadiyyatı kontekstində innovasiya proseslərinin xüsusiyyətlərinin dərk edilməsinə mühüm töhfə verib və gələcək tədqiqatların əsas istiqamətlərini müəyyənləşdirib.

## Biznes sistemində innovasiyalar üçün təhdidlər və imkanlar

Biznesin vəziyyətinə və inkişafa təsir edən təhdidlər birbaşa və dolayı, daxili və xarici ola bilir. Bu təhdidlərin milli biznes mühitinə təsirinin müəyyən edilməsinin çətinliyi onların bir-biri ilə əlaqəli olması və əks-əlaqəyə malik olmasıdır. Yəni, birbaşa təhdidlər zamanla dolayı təhdidlərə, daxili təhdidlər isə xarici təhdidlərin yaranmasına səbəb olur. Bu əlaqəni müəyyən etmək üçün onları ayrıca nəzərdən keçirək.

**Cədvəl 1**

**Biznes sistemində innovasiyaların yaranma və tətbiqinə təsir edən birbaşa və dolayı təhdidlər**

| Birbaşa təhdidlər- problemlər | Dolayı təhdidlər-problemlər |
|---|---|
| Ölkə sənayesinin struktur deformasiyası | Yerli innovativ məhsulların aşağı rəqabət qabiliyyəti, onlar haqqında məlumat çatışmazlığı |
| Yerli istehsalın innovativ yönümlüyünün azalması | Xammal ixracının üstünlük təşkil etməsi və innovasiyalara marağın zəifliyi |
| Sənaye sahələrində innovativ fəallığın aşağı olması | Kapitalın ölkədən çıxarılması və innovasiyalara yönəldilməməsi, dövlərin maliyyə dəstəyinin zəif olması |
| Əsas vəsaitlərin və texnologiyaların köhnəlməsi | Dünya bazarlarında yerli innovativ mallara qarşı diskriminasiya tədbirləri |
| İnnovativ avadanlıq və texnologiyanın idxalından asılılıq və bahalı, riskli olması | İnnovasiyalar haqqında məlumat çatışmamazlığı |
| İstehsalda elmi potensialdan (ixtira və s.) zəif istifadə | İnnovativ məhsul istehsalçılarına qarşı proteksionist dövlət siyasətinin olmaması və ya gec qəbul edilməsi |
| İxtisaslı kadrların çatışmazlığı | Emiqrasiya proseslərinin artması və ixtisaslı kadr itkisi |

***Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir.*

Biznes mühitində olan dəyişikliklərin hər hansı bir şirkətin fəaliyyətinə təsir etdiyi, lakin şirkətin özünün, bir qayda olaraq, təsir edə bilmədiyi bir sahə kimi xarici təhdidlər siyasi-hüquqi, iqtisadi, sosial, texnoloji dəyişikliklərlə bağlı olur. Onlar həmçinin "uzaq əhatə" təsir dairəsi kimi də qəbul edilir. Lakin şirkətə təsir edən və şirkətin də birbaşa təsir edə biləcəyi mühit kimi "yaxın əhatə" təsir dairəsi onu dəyişdirə və formalaşdıra bilər ki, bu da rəqabət, müştərilər, resurs təchizatçılardan ibarət təsir dairəsidir. Məhz bu mühit daha çox təhlil edilir və bu mühitdə rəqabət olduğuna görə də menecerlər onun təhlilinə çox vaxt və diqqət ayırırlar. Nəticədə biznes sistemdə cari və uzunmüddətli perspektivdə xarici və daxili təhdidlərin siyahısını müəyyən etmək zərurəti yaranır. Onların təsiri innovativ iqtisadi fəaliyyət və rəqabət qabiliyyətlilik baxımından heç də az əhəmiyyət kəsb etmirlər. Nəzərə alaq ki, bu, həm də digər dövlətlərin, biznes strukturların maraqlarına söykənir. Ona görə də biznes sistemində innovasiyaların tətbiqi həm siyasi, həm də iqtisadi maraqları nəzərə almalıdır ki, bəzən bu iki yanaşma bir-birini tamamlayır.

Müasir şəraitdə daxili təhdidlərə aşağıdakılar daxildir:

• iqtisadi sahələrdə mənəvi köhnəlmiş və ya innovativ olmayan avadanlıqdan istifadə;

• innovativ məhsulların rəqabət qabiliyyətinin və təbliğinin zəifliyi, ideyaların oğurlanması;

• innovativ texnologiya və materialların bahalığı və idxaldan asılılığının yüksək səviyyəsi;

• daxili maliyyə imkanlarının məhdudluğu və innovativ məhsul üçün maliyyə dəstək mexanizminin təkmil olmaması.

Xarici təhdidlər bilavasitə iqtisadiyyatın mövcud vəziyyətini, həm də daxili bazar və dünya qiymətlərində, valyuta məzənnələrində, kapital axınında və s. baş verən halların təsirini əks etdirir və onlara daxildir:

• statistika orqanlarının məlumatlarının natamamlığı;

• qanunvericilik bazasının natamamlığı;

• regionların və iqtisadi zonaların qeyri-bərabər sosial-iqtisadi və innovativ inkişafı;

• iqtisadiyyatın deformasiyaya uğramış strukturu;

• innovasiyalara investisiyanın və marağın aşağı səviyyəsi;

• innovasiyalar sahəsində vergi sisteminin natamamlığı;

• fond bazarının inkişaf etməməsi;

• inflyasiyanın, kölgə iqtisadiyyatının, bürokratiya və korrupsiyanın mövcudluğu;

• innovasiyalara dünya qiymətlərinin səviyyəsi

Biznes sistemində innovasiyaların idarə edilməsi proses olaraq ideyanın yaradılması, marketinqi, fəaliyyətin qiymətləndirilməsi, mənimsənilməsi, kommersiyalaşdırılması və təşviqindən ibarət olub, məhsulların və texnologiyaların sürətli yenilənməsini təmin etməlidir. Bu elementlərin hər biri üzrə təhlilin aparılmasına ehtiyac var.

Biznes sistemində innovasiyalar üçün imkanların yaradılması bir neçə istiqamət üzrə qruplaşdırıla bilər:

• İnnovasiyalar üçün əlverişli şəraitin yaradılması;

• İnnovasiyaların koordinasiya və idarə edilməsi.

Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində innovasiyaların inkişafı üçün əlverişli mühitin yaradılması Azərbaycanın 2030–cu ilə qədər Milli Prioritetlərində əsas məqsədlərdən biridir. Bura innovativ layihələrin dəstəklənməsi və stimullaşdırılması, həmçinin innovasiya prosesinin iştirakçıları arasında təcrübə və bilik mübadiləsi daxildir.

İlkin olaraq qeyd edək ki, biznes sistemində innovasiyalar üçün əlverişli şəraitin yaradılması yeni ideyaların verilməsi təşəbbüskarlığına dəstək, bu ideyaların həyata keçirilməsinə çevik reaksiya verərək işgüzar prosesləri əlaqələndirmə və nəhayət, yeni ideyaların reallaşması zamanı risklərin

nəzərə alınması ilə bağlıdır. A.Yu Prixaça görə yenilik, xüsusən də ideya şəklində ola bilər və onun orijinallığı sayəsində standart fəaliyyətlə müqayisədə innovasiya prosesi yüksək gəlir və effektivlik əldə etməyə imkan verir [7]. İdeyaların yaradılması prosesi çox vaxt şirkətlərin innovativ inkişafında ən çətin mərhələyə çevrilir. Peter Drucker yeddi əsas innovasiya mənbəyini müəyyən etməklə bu problemin həllinə praktiki yanaşma təklif etdi. O, bu mənbələri daxili və xariciyə ayırmaqla, şirkət və ya sənayenin özü ilə əlaqəli daxili mənbələrə gözlənilməz hadisələrin gözlənilməz uğurlar, uğursuzluqlar və ya xarici hadisələrə gətirdiyini, reallıq və gözləntilər arasında uyğunsuzluqların olmasını, boşluğun təhlili zamanı müəyyən edilmiş prosesin təkmilləşdirilməsi ehtiyaclarının yaranmasını, sənaye və ya bazar strukturunda dramatik dəyişikliklərin olmasını aid edir. Şirkət və ya sənayedən kənarda yaranan xarici mənbələr kimi isə demoqrafik dəyişiklikləri, ictimai təsəvvürlərdə və dəyərlərdə dəyişiklikləri, həm elmi, həm də tətbiqi baxımdan yeni biliklərin yaranmasını qeyd edir. Nəzərə almaq lazımdır ki, bu mənbələr tez-tez üst-üstə düşür və qarşılıqlı əlaqədə olur, innovasiya prosesində mürəkkəb dinamika yaradır. Bu mənbələri başa düşmək və istifadə etmək şirkətlərdə yeni ideyaların yaradılmasını xeyli asanlaşdıra bilər. İnnovasiyalar üçün əlverişli şəraitin yaradılması təkcə innovativ ideyalar yaratmaq deyil, həm də onları tez bir zamanda biznesə çevirmək qabiliyyətinə malik olmanı nəzərdə tutur. Yeni ideya təşəbbüskarlığının stimullaşdırılması insanların ideyanı irəli sürməsinin iqtisadi və inzibati yolla motivə edilməsini, innovasiya mədəniyyətinin yaradılmasını və s. özündə birləşdirir.

Şirkətin rəhbəri istənilən innovasiya prosesinin hərəkətverici qüvvəsidir və innovativ ideyaların işlənib hazırlanmasından və planlaşdırılmasından tutmuş innovasiyaların idarə edilməsinin bütün mərhələlərinə təsir göstərir. P.Druker biznesdə innovasiyanın vacibliyini vurğulayaraq menecerlərin innovativ fəaliyyətinin normaya çevrildiyi "sahibkar cəmiyyəti" konsepsiyasını təklif etdi. O, menecerlərin "idarəçi-sahibkar" olaraq "idarəetmədə inqilab" etdiyini qeyd etdi [2]. Məhz buna görə də şirkətin fəaliyyətinin və onun innovasiyasının effektivliyinin əsas şərtlərindən biri menecerlərin özlərinin "səmərəliliyi"dir ki, bu da menecerlərə olan tələblər sistemində əhəmiyyətli dəyişiklikləri tələb edir. Müasir şirkətlərdə innovasiyaların idarə edilməsi menecerlər qarşısında problem yaradır. Bu, ənənəvi iyerarxik strukturu innovasiya üçün zəruri olan daha azad, qeyri-rəsmi mühitlə necə effektiv şəkildə birləşdirə bilməklə bağlıdır. Əsas sual məxfi məlumatı qorumaq və işçilər arasında açıq bilik mübadiləsini təşviq etmək arasında tarazlığı necə saxlamaqdır.

İnnovasiyaları uğurla həyata keçirmək üçün şirkətlər xüsusi idarəetmə vasitələrindən istifadə etməlidirlər. Bunlara çarpaz funksional layihə qruplarının yaradılması, ayrı-ayrı departamentlərə daha çox muxtariyyət verilməsi, bəzi funksiyaların təkrarlanmasına və daxili rəqabətə yol verilməsi və uğursuzluğa dözümlü mədəniyyətin formalaşdırılması daxildir. Bu prosesdə menecerin əsas rolu təşkilat daxilində müxtəlif qrupların maraqları arasında tarazlıq tapmaq bacarığıdır. Daha mühafizəkar elementlərin müqavimətini qabaqcadan görmək və idarə etmək, innovativ dəyişikliklərdən əziyyət çəkənlər üçün kompensasiya tədbirləri hazırlamaq vacibdir. Qeyd etmək lazımdır ki, ekspertlərin fikrincə, innovasiyaların tətbiqi ilə bağlı problemlərin təxminən 80%-i innovasiya prosesinin iştirakçıları arasında qeyri-kafi ünsiyyət və qarşılıqlı əlaqə ilə bağlıdır [8]. Bu fakt innovasiyaların işlənib hazırlanması və tətbiqi zamanı rəhbərlik üçün əməkdaşlıq və məlumat mübadiləsi üçün effektiv mexanizmlərin yaradılmasının nə qədər vacib olduğunu vurğulayır.

İkinci istiqamət kimi qeyd etdiyimiz innovasiyaların koordinasiya və idarə edilməsi mövcud resurslardan optimal istifadə etməyə imkan verir və innovativ ideyaların həyata keçirilməsi zamanı səylərin təkrarlanmasının qarşısını alır.

Ölkəmizdə uzun müddət mövcud olan problemlərdən innovasiya subyektlərinin yaradılması və səmərəli fəaliyyətinə təsir edən 2 əsas halı qeyd edək:

1. Fəaliyyət göstərən normativ-hüquqi baza, demək olar ki, yox dərəcəsindədir.

2. Dövlət tərəfindən səmərəli dəstək tədbirlər sistemi tam işlənməyib [4].

Bunu nəzərə alaraq ölkə səviyyəsində mühüm addımlar atıldı və "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində əlaqələndirmənin təmin edilməsi haqqında" 2019-cu il 10 yanvar tarixli 881 nömrəli Sərəncamın qəbulundan sonra innovasiya fəaliyyətinin əlaqələndirilməsinin gücləndirilməsi əsas məqama çevrildi [1]. Bu sərəncama uyğun olaraq, müxtəlif dövlət qurumlarına, Azərbaycan Milli Elmlər Akademiyasına və digər ictimai təşkilatlara innovativ layihələrin əlaqələndirilməsinə məsul şəxslərin təyin edilməsi tələb edilib. Həmin şəxslər öz təşkilatlarında innovativ ideyaların irəliləməsi ilə bağlı yarımillik hesabatlar hazırlamalı və müvafiq qurumlara təqdim etməlidirlər. Bu

prosesin tərkib hissəsi kimi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsi bütün ölkə üzrə əlaqələndirmə fəaliyyəti subyektlərindən daxil olan məlumatların təhlili və emalı sahəsində aparıcı rol oynayacaq. Bu, daha effektiv nəzarət və idarəetmə üçün cari innovativ layihələr və fəaliyyətlər haqqında bütün məlumatları bir yerdə toplamağa imkan verəcək. Beləliklə, milli innovativ inkişafın bütün səylərini və resurslarını birləşdirməyə imkan verən vahid innovasiya koordinasiya mexanizmi yaradılır. Azərbaycan hökuməti 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyasında rəqəmsal iqtisadiyyatın inkişafına xüsusi diqqət ayırıb. Rəqəmsal iqtisadiyyat strategiyasının əsasları kimi ölkədə rəqəmsal iqtisadiyyatın formalaşdırılması, bu sahədə qabaqcıl ölkələrdən birinə çevrilmək, rəqəmsal iqtisadiyyatın ölçülməsi və koordinasiya edilmiş şəkildə inkişafının təmin edilməsi irəli sürülüb. Qlobal texnoloji tendensiyalara uyğun olaraq və internetdən istifadədə fəallığın kəskin artması ilə informasiya-kommunikasiya sistemləri innovativ inkişafın perspektivli sahəsinə çevrilmişdir. Rəqəmsal infrastruktur və xidmətlər, müvafiq qanunvericilik, maliyyə resurslarının əlçatanlığı və rəqəmsal bacarıqların inkişaf etdirilməsi əsas məqsədlər kimi qarşıya qoyulur. Azərbaycanın elektron hökumət və rəqəmsal idarəetmə sahəsində davamlı inkişafını və təkmilləşməsini təmin etmək məqsədi ilə aşağıdakı addımlar atılmışdır:

a) 5 sentyabr 2012-ci il tarixli 706 nömrəli Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında;

b) 12 yanvar 2018-ci il tarixli 1785 nömrəli Rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında;

c) 14 mart 2018-ci il tarixli 1885 nömrəli Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında.

d) 12 sentyabr 2018-ci il tarixli 263 nömrəli Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydalarının təsdiqi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında AR Prezidentinin fərmanları həyata keçirilmişdir.

Əqli mülkiyyət hüquqlarının qorunması və təminatı sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində aparılan tədbirlərin davamı olaraq hesabat ilində Agentlikdə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər edilməsi ilə bağlı qanun layihələri hazırlanmışdır. Agentlik tərəfindən Avrasiya Patent İdarəsinə göndərilmiş iddia sənədləri üzrə 171 patent, o cümlədən 2023-cü ildə 54 patent verilib [3]. Lakin verilmiş patentlərin, sertifikatların sayı heç də innovasiyaların tətbiqinin effektivlik göstəricisi deyil. Əslində effektivlik yeni ideyaların və patentlərin sayı ilə deyil, onların tətbiqindən əldə edilən iqtisadi və sosial səmərə ilə ölçülür. Ona görə bu əmtəə nişanlarının (patent, sertifikat və s.) bazar rəqabətinə təsirinin təhlili zəruridir [6]. Qlobal İnnovasiya indeksinin alt göstəricilərinin təhlili Azərbaycan üzrə vəziyyətin 2023-cü ildə 2022-ci ilə nisbətən yaxşılaşdığını göstərir.

**Diaqram 1.2.**
**Azərbaycanın Qlobal İnnovasiya İndeksinin alt göstəriciləri üzrə reytinqi**




***Mənbə:*** *Müəllif tərəfindən https://www.wipo.int/global_innovation_index/en/ materialları və Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin hesabatları əsasında tərtib edilmişdir.*

Aparılan təhlil göstərir ki, məhz biznes strukturlarının innovasiyaya yönəltdiyi vəsaitlərin həcmi az deyil. Belə ki, 2005-2022-ci illərin statistik məlumatlarının təhlilindən aydın olur ki, sənayedə texnoloji innovasiyalara yatırılmış 469,8 milyon manat vəsaitin 59,3 %-i müəssisələrin öz vəsaitləri olmuşdur. Bu müəssisələr üçün kifayət qədər böyük göstəricidir. Qeyd edək ki, həmin dövrdə mədənçıxarma sənayesində texnoloji innovasiyalara yatırılmış 65,2 milyon manatın 32,4%-i müəssisələrin öz vəsaitləri olmuşdur. Emal sənayesində isə texnoloji innovasiyalara yatırılmış 357,3 milyon manatın 70,7%-ni müəssisələrin investisiyaları təşkil edib.

**Diaqram 2.10**
**Sənayedə texnoloji innovasiyalara qoyulan vəsait, min manat**




***Mənbə:*** *Müəllif tərəfindən https://stat.gov.az/source/industry/ 06.08.2024 tarixə olan materiallar əsasında tərtib edilmişdir.*

**Diaqram 2.11**
**Mədənçıxarma sənayesində texnoloji innovasiyalara qoyulan vəsait, min manat**




***Mənbə:*** *Müəllif tərəfindən https://stat.gov.az/source/industry/ 06.08.2024 tarixə olan materiallar əsasında tərtib edilmişdir.*

**Diaqram 2.12**
**Emal sənayesində texnoloji innovasiyalara qoyulan vəsait, min manat**




***Mənbə:*** *Müəllif tərəfindən https://stat.gov.az/source/industry/ 06.08.2024 tarixə olan materiallar əsasında tərtib edilmişdir.*

Hazırda investisiya prosesinin daha da mərkəzsizləşdirilməsi vacibdir. Bu, müxtəlif mülkiyyət formalarının inkişafını, müəssisələrin investisiya layihələrinin maliyyələşdirilməsində daxili əmanət mənbələrinin rolunun artırılmasını, mərkəzləşdirilmiş investisiyalar hesabına müəssisələrə dövlət dəstəyini, habelə məhdud mərkəzləşdirilmiş kapital qoyuluşlarının ciddi şəkildə məqsədli proqramlara uyğun olaraq yerləşdirilməsini nəzərdə tutur. Amma innovasiyalara yönələn investisiya qərarları qəbul edərkən mühüm şərt hər bir investisiya proqramının və layihəsinin ilkin ekspertizası olmalıdır. Bu ekspertiza layihələrin sosial-iqtisadi siyasətin məqsəd və prioritetlərinə, iqtisadi təhlükəsizlik tələblərinə uyğunluğunu, habelə onların iqtisadi səmərəliliyini və özünü doğrultmasını qiymətləndirməlidir. Əlavə maliyyə resurslarının cəlb edilməsinin səmərəli mexanizmi investisiya layihələrinin birgə və ya paylı dövlət-kommersiya maliyyələşdirməsindən, o cümlədən xarici ölkələrdən kapital cəlb etməklə istifadə oluna bilər.

Beləliklə, Azərbaycanda investisiyalar üçün kifayət qədər cəlbedici şərait yaradılıb və investisiya mühitinin daha da yaxşılaşdırılması ehtiyacını ödəyə bilən potensial var.

Azərbaycan iqtisadiyyatında innovativ potensialla onun praktikada tətbiq edilməsi arasında fərq qalmaqdadır. Başqa sözlə, eyni innovativ imkanlar cəmiyyətdə və iqtisadiyyatda mövcud olan şəraitdən asılı olaraq müxtəlif dərəcədə müvəffəqiyyətlə həyata keçirilə bilər. İnnovativ potensialın həyata keçirilməsi üçün uyğun sosial və iqtisadi şərait yaradılmasa, reallaşdırılmamış qala bilər. Bu, təkcə texnoloji deyil, həm də sosial aspektləri nəzərə almaqla biznes sistemində innovativ inkişafa kompleks yanaşmanın zəruriliyini təsdiqləyir. İnnovasiya sahəsində əsas problemlərdən biri sosial sahəyə investisiyalar və iri innovativ sənayelərə investisiyalar arasında seçimin çətinliyidir. Bu dilemma onunla çətinləşir ki, innovativ istehsalın aktivləşdirilməsi üçün biznesin və sahibkarlığın geniş miqyasda cəlb edilməsi tələb olunur ki, bu da təcrübənin göstərdiyi kimi, dövlət dəstəyi olmadan mümkün deyil.

İnnovativ resurslardan istifadənin səmərəliliyi əsasən institusional mühitdən asılıdır. İnnovasiyanın uğurla həyata keçirilməsi üçün uyğun fürsətlərin yaradılması mütləqdir. Dövlətin qarşısında sosial sərmayələrin balanslaşdırılması və innovativ istehsalın dəstəklənməsi kimi çətin vəzifə durur. İnnovasiyaları gücləndirmək üçün biznesin genişmiqyaslı cəlb edilməsi tələb olunur ki, bu da dövlət dəstəyi olmadan mümkün deyil. Dövlət əlverişli şərait yaratmaqla innovativ inkişafı biznes sistemində üç əsas istiqamət üzrə stimullaşdırır:

- Tənzimləyici istiqamət üzrə şərtlərə innovativ fəaliyyət subyektləri arasında qarşılıqlı əlaqə üçün aydın hüquqi bazaların yaradılması və onların hüquq və mənafelərinin, o cümlədən əqli mülkiyyət hüquqlarının qorunmasına təminat daxildir. Bu, innovasiyanın inkişafı üçün zəruri hüquqi baza yaradır və innovasiya prosesinin iştirakçıları üçün riskləri azaldır.

- İqtisadi istiqamət üzrə vergi güzəştləri, maliyyə dəstəyi, lizinqin inkişafı, modernləşdirmə yardımı, güzəştli kreditlər, gömrük məhdudiyyətlərinin ləğvi və innovativ layihələr üçün gömrük güzəştlərinin tətbiqi və s. daxildir. Dövlətin yaratdığı əlverişli iqtisadi şəraitə bazarda innovasiyaların təklifinin artmasına töhfə verən qiymət siyasətinin həyata keçirilməsi də aid etmək olar. Həmçinin innovasiya sektorunda haqsız rəqabətin qarşısının alınması, innovasiya sektorunda xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi və xarici iqtisadi dəstəyin, o cümlədən innovasiyaları mənimsəyən və yayan yerli istehsalçılara dəstək və yardımların edilməsi innovativ sahibkarlığın aktivləşdirilməsinə də kömək edir.

- Təşkilati istiqamət üzrə innovativ proqramların həyata keçirilməsi, infrastrukturun inkişafı, kadr hazırlığı, informasiya təminatı və digər addımlar çıxış edir.

İnnovasiya siyasətinin uğurla həyata keçirilməsi təkcə dövlətin deyil, biznesin, maliyyə institutlarının, ictimai təşkilatların da iştirakını tələb edir. İnnovasiya prosesinin mühüm elementləri sistematik monitorinq və nəticələrin qiymətləndirilməsidir. Bu, problemləri vaxtında müəyyən etməyə və inkişaf strategiyanızı tənzimləməyə imkan verir. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Əqli Mülkiyyət Agentliyinin və digər orqan və təşkilatların daimi hesabatları ictimaiyyət, yəni cəmiyyət və maraqlı tərəflər qarşısında şəffaflığı və hesabatlılığı təmin edir.

Dövlət biznes sistemində innovasiyaların formalaşması və tətbiqini stimullaşdırmaq üçün innovasiya siyasətini həyata keçirir ki, innovasiya fəaliyyətlərinə hərtərəfli dəstək, elmtutumlu məhsulların rəqabət qabiliyyətinin artırılması, innovasiya prosesi infrastrukturunun inkişafı, kiçik innovativ sahibkarlığa dəstək, layihə seçim sisteminin təkmilləşdirilməsi, kritik texnologiyaların tətbiqi, ikili tətbiq (həm hərb, həm də mülki sahədə tətbiq edilə bilən) texnologiyalarından istifadə onun əsas tədbirləri kimi qəbul edilir.

Biznes sistemlərində innovasiya ilə bağlı imkanların və problemlərin təhlili innovasiya proseslərinin uğuruna təsir edən əsasları müəyyən etməyə imkan verir. Biznes sistemində innovasiyalar üçün imkanlara aid edilir:

- Rəqəmsal transformasiya müasir biznes sistemlərində innovasiyalar üçün ən mühüm imkanlardan birini təmsil edir. Rəqəmsal texnologiyaların tətbiqi təkcə mövcud biznes proseslərini optimallaşdırmağa deyil, həm də prinsipial olaraq yeni biznes modelləri yaratmağa imkan verir. Bundan əlavə, böyük verilənlərin təhlili daha effektiv idarəetmə qərarlarının qəbulu üçün perspektivlər açır. Uğurlu rəqəmsal transformasiyanın bariz nümunəsi maliyyə sektorunda innovativ texnologiyaların tətbiqidir ki, bu da əməliyyatların şəffaflığının və təhlükəsizliyinin artmasına səbəb olmuşdur.

- Açıq innovasiya konsepsiyası təşkilatlara xarici tərəfdaşlar, startaplar və tədqiqat institutları ilə əməkdaşlıq vasitəsilə innovasiya potensialını genişləndirmək imkanı verir. Bu yanaşma mövcud biznes proseslərinə inteqrasiya oluna bilən yeni ideya və texnologiyalara çıxışı təmin edir. Açıq innovasiya strategiyasının uğurla həyata keçirilməsinə misal olaraq, Procter & Gamble-ın xarici innovatorlarla fəal qarşılıqlı əlaqədə olduğu “P&G Connect + Develop proqramı”nı göstərmək olar.

- Agile və Lean kimi çevik idarəetmə metodologiyalarının tətbiqi təşkilatlara bazar dəyişikliklərinə daha tez reaksiya verməyə və yeni məhsulların bazara çıxarılması prosesini sürətləndirməyə imkan verir. Bu yanaşma xüsusilə innovasiya sürətinin kritik olduğu yüksək texnologiyalı sənayelərdə effektivdir. Spotify-ın xidməti üçün yeni funksiyalar hazırlamaq üçün Scrum-dan istifadə etməsi buna misaldır.

- Korporativ vençur fondlarının yaradılması şirkətlərə perspektivli startaplara sərmayə qoymaq imkanı verir, bununla da ən son texnologiyalara çıxışı təmin edir və onların innovasiya portfelini şaxələndirir. Bu strategiyanın uğurla həyata keçirilməsinə misal olaraq süni intellektdən biotexnologiyaya qədər müxtəlif sahələrdə startaplara sərmayə qoyan Google Ventures-i göstərmək olar.

Biznes sistemində innovasiya problemləri kimi aşağıdakıları qeyd etmək olar:

- İnnovasiyanın aşkar üstünlüklərinə baxmayaraq, şirkətlər onun həyata keçirilməsində bir sıra əhəmiyyətli problemlərlə üzləşirlər. Əsas problemlərdən biri təşkilati ətalətdir ki, bu da işçilər və rəhbərlik tərəfindən dəyişikliklərə müqavimət, habelə qurulmuş iş proseslərinin dəyişdirilməsinin çətinliyi ilə özünü göstərir. Təşkilati ətalətin innovasiyalara mənfi təsirinin bariz nümunəsi kinodan rəqəmsal fotoqrafiyaya keçiddə ciddi çətinliklərlə üzləşmiş Kodak təcrübəsidir.

- Bir çox şirkətləri səciyyələndirən qısamüddətli düşüncə də innovasiyalar üçün əhəmiyyətli maneə yaradır. Rüblük nəticələrə diqqət və sərmayədən tez

gəlir əldə etmək üçün səhmdarların təzyiqi çox vaxt uzunmüddətli innovasiya layihələrinin az maliyyələşdirilməsi ilə nəticələnir. Bu tendensiya xüsusilə iqtisadi böhranlar zamanı, bir çox şirkətlərin elmi-tədqiqat və inkişaf xərclərini azaltdığı zaman özünü göstərir.

- İxtisaslı kadrların çatışmazlığı biznes sistemlərində innovasiyalar üçün digər mühüm problemdir. Şirkətlər istedadların cəlb edilməsi və saxlanmasında çətinlik-lərlə, eləcə də işçiləri yeni texnologiyalar üzrə davamlı olaraq öyrətmək zərurəti ilə üzləşirlər. Bu problem xüsusilə mütəxəssislər üçün qlobal rəqabətin mövcud olduğu süni intellekt və maşın öyrənmə kimi yüksək texnologiyalı sahələrdə aktualdır.

- Tənzimləyici məhdudiyyətlər də innovasiyaya əhəmiyyətli maneələr yaradır. Şirkətlər innovativ layihələrdə, xüsusən qanunvericiliyin texnoloji inkişaf tempindən geri qaldığı hallarda tənzimləyici tələblərə riayət etməkdə çətinlik çəkirlər. Bu problemin bariz nümunəsi kriptovalyuta və innovativ maliyyə texnologiyaları sahəsində fəaliyyət göstərən şirkətlərin üzləşdiyi çətinliklərdir.

Yuxarıda qeyd edilənləri bir araya gətirərək biznes sistemində innovasiyalar üçün imkanlar və problemləri qruplaşdıraq.

**Cədvəl 2.**
**Biznes sistemində innovasiyalar üçün imkanlar və problemlərin qruplaşdırılması**

| İmkanlar | Problemlər |
|---|---|
| Rəqabət qabiliyyətinin artırılması:<br>• unikal məhsul və xidmətlər yaratma;<br>• təkmilləşdirilmiş səmərəlilik- proses innovasiyası;<br>• radikal innovasiyalar əsasında mavi okean - yeni bazarların yaradılması. | Qeyri-müəyyənlik və risklərin mövcudluğu:<br>• İqtisadi-maliyyə riskləri;<br>• Texniki və texnoloji risklər;<br>• Bazar Riskləri;<br>• Hərbi-siyasi risklər;<br>• Dini-mədəni risklər:<br>• Sosial və ekoloji risklər. |
| İqtisadi artım və iş yerlərinin yaradılması:<br>• Yüksəkixtisaslı iş yerlərinin yaradılması;<br>• Multiplikativ effektin olması;<br>• Əmək məhsuldarlığının artıması. | Dəyişiklərin kəskin olması:<br>• Səriştə və bacarıqların aşılanması və ya tam yenilənməsi;<br>• Şirkət strukturunun qeyri-adaptiv olması;<br>• Dəyişikliklərin uzunmüddətli və idarəedilə bilməyən olması, idarəetmədə konservatizm. |
| Müxtəlif sahələrdə tətbiq:<br>• Ekoloji innovasiyalar;<br>• Tibbi innovasiyalar;<br>• Sosial innovasiyalar və s. | Etik və sosial tələblərin yerinə yetirilə bilməməsi:<br>• Məlumat məxviliyi və təhlükəsizliyin təmin edilə bilməməsi;<br>• İş yerlərinin və işçilərin ixtisarı;<br>• İnnovasiyalara və yeniliklərə açıqlığın məhdudlaşdırılması;<br>• Uğursuzluqların mənəvi baxımdan idarə edilə bilməyən olması;<br>• Süni intellekt və gen mühəndisliyinin istifadəsində çərçivənin olmaması. |
| Rəqəmsal transformasiya:<br>• Yeni rəqəmsal biznes modelləri;<br>• Xidmət və məhsulların fərdi tələblərə uyğunlaşdırılması;<br>• Proseslərin avtomatlaşdırılması və optimallaşdırılması. | Ləngimələrin olması:<br>• Qanunvericiliyin təkmilləşdirilməsində gecikmələr;<br>• Patent və müəlliflik hüquqlarının qorunmasında problemlərin qarşısının alınmasında çətinliklər;<br>• Açıq innovasiyalar və qorunan müəllif hüquqları arasında balansın kəskin olması;<br>• Təhlükəsizliyin təmininin innovasiyaların tətbiqinə mənfi təsiri;<br>• Beynəlxalq tənzimləmə tədbirlərinin uyğunlaşdırılması və əlaqələndirilməsinin ləng getməsi; |
| Yeni bazarlara çıxış:<br>• Biznesin miqyasının artılması;<br>• Yerli kiçik bazarlara uyğunlaşma;<br>• Qlobal innovasiya sistemlərində iştirak. | Əlçatanlıq baxımından:<br>• Kapitalın əlçatan olmaması;<br>• İnnovasiyalara qoyulan investisiyaların gec geri qaytarılması;<br>• İnnovasiya layihələrinin qiymətləndirilməsində çətinliklərin olması; |

***Mənbə:*** *Müəllif tərəfindən tərtib edilmişdir.*

Beləliklə, biznes sistemlərində innovasiya imkanlarının və problemlərinin təhlili bu prosesin mürəkkəb mahiyyəti haqqında belə bir nəticə çıxarmağa imkan verir ki, bir tərəfdən, müasir texnologiyalar və idarəetmə yanaşmaları innovasiyalar üçün geniş perspektivlər açır, şirkətlər öz fəaliyyətlərinin səmərəliliyini artırmağa və yeni rəqabət üstünlüyü mənbələri yaratmağa imkan verir. Digər tərəfdən, şirkətlər bir sıra mühüm maneələrlə üzləşirlər ki, onların aradan qaldırılması sistemli yanaşma və innovativ inkişaf üçün həm dövlət, həm də şirkətlər tərəfindən tətbiq ediləcək uzunmüddətli strategiyaları tələb edir.

## Nəticə

Biznes sistemində innovasiyalar üçün imkanlar və problemlərin nəzəri təhlili göstərdi ki, innovasiyalar müasir biznes sistemlərinin inkişafı və rəqabət qabiliyyətinin artırılması üçün həlledici əhəmiyyət kəsb edir. Müəyyən edilmişdir ki, rəqəmsal transformasiya, açıq innovasiya konsepsiyası və çevik idarəetmə metodologiyalarından istifadə, innovasiya sferasında dövlət-özəl tərəfdaşlığın stimullaşdırılması və korporativ vençur fondları kimi yanaşmalar innovasiya prosesini sürətləndirir və şirkətlərə yeni imkanlar açır. Bununla belə, innovasiyaların tətbiqi bir sıra ciddi problemlərlə müşayiət olunur. Bunlara təşkilati ətalət, qısamüddətli düşüncə tərzi, ixtisaslı kadr çatışmazlığı, innovasiyaların kommersiyalaşdırılmasında çətinliklər, tənzimləyici məhdudiyyətlər, qeyri-müəyyənlik və risklər, etik və sosial tələblərin yerinə yetirilməsində çətinliklər aiddir. Bu problemlər innovasiya prosesini ləngidir və onun effektivliyini azaldır. Həmçinin müəyyən edilmişdir ki, sənaye strukturunun deformasiyası, aşağı innovativ aktivlik, idxal texnologiyalarından asılılıq, beyin axını kimi problemlər həm də təhdidlər kimi çıxış edir.

Əhəmiyyətli cəhət innovativ layihə və proqramların seçilməsi üçün rəqabət sisteminin təkmilləşdirilməsidir. Özəl investorların iştirakı və dövlət dəstəyi ilə nisbətən kiçik və tez ödəyən innovasiya layihələrinin həyata keçirilməsi ən perspektivli sənaye və təşkilatlara dəstək verəcək və innovasiya sektoruna özəl investisiya axınını artırmalıdır. İnnovasiya siyasətinin formalaşdırılması və həyata keçirilməsinin əsas vəzifəsi iqtisadiyyatın əsas sahələrində istehsalın səmərəliliyinin və məhsulların rəqabət qabiliyyətinin artırılmasına həlledici təsir göstərən az sayda, amma mühüm texnologiyaların seçilməsidir. Bu kritik texnologiyalar prioritet sahələrdə yeni

texnoloji struktura keçidi təmin etməklə ölkə iqtisadiyyatının transformasiyasına şərait yaradacaq. Nəhayət, ikili istifadə texnologiyalarından istifadə həm silah və hərbi texnikanın istehsalı, həm də mülki məhsulların yaradılması üçün istifadə edilə bilər ki, bu da ölkənin elmi-texniki potensialından və yeni texnologiyaların inkişafına qoyulan resurslardan daha səmərəli istifadə etməyə imkan verir. Beləliklə, qeyd edilən bütün bu tədbirlər biznes sistemində innovasiyaların istifadəsi üçün əlavə fürsətlərin yaradılması kimi dəyərləndirilir.

**Ədəbiyyat siyahısı:**


1. *"Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində əlaqələndirmənin təmin edilməsi haqqında" 2019-cu il 10 yanvar tarixli 881 nömrəli AR Prezidentinin Sərəncamı*
2. *Drucker P. F. Innovation and Entrepreneurship: Practice and Principles.New York Harper&Row, 1985.Pp.ix,277*
3. *Əqli Mülkiyyət Agentliyinin hesabatı 2023. https://copat.gov.az/docs/Hesabatlar/Hesabat-2023%20-%20Qısa%20icmal.pdf?_t=1709710661*
4. *Hüseynova A. Azərbaycanda innovasiya fəaliyyətinin inkişaf yolu. Azərbaycanın Vergi Jurnalı, 4(124), 2015, s.141.*
5. *Nuriyev Ə. X. Azərbaycanda sənayenin müasir ərazi təşkili formalarının inkişafı problemləri AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2019 (mart-aprel), s.65.*
6. *Иманов К. Инновационное развитие и интеллектуальная собственность. Баку, 2019, s.25. https://copat.gov.az/docs/Nesrler/RUS/Innovasiyaru/Innovasiyali_inkisaf_ve_EM_ru.PDF?_t=1563429830*
7. *Прихач А.Ю. Значение инновационной деятельности для конкурентных преимуществ фирмы // Инновации. — 2004 — № 10 (77) — с. 84–86.*
8. *Развитие бизнеса через инновации.https://kr.by/read/razvitie-cherez-innovatsii/*


**XÜLASƏ**


Biznes sistemi strateji məqsədlərə çatmaq üçün təşkilati vahid tərəfindən həyata keçirilən çoxsaylı biznes prosesləri birləşdirməklə, dəyişən şərtlərə uyğunlaşa bilən çevik sistemdir. Geniş mənada istənilən iqtisadi, inzibati-təşkilati və bazar şəraitində fəaliyyət göstərə bilən digər sistem kimi problem və qarşıya qoyulan vəzifələrin həllinə və maksimum gəlir götürməyə xidmət edir. Biznes sisteminin inkişafı onun keyfiyyətinin yüksəldilməsi üçün, həm də davamlı bir prosesdir. Bu, Azərbaycanın innovativ potensialının inkişaf etdirilməsində biznes sisteminin əhəmiyyətini artırır ki, bu da biznes sistemində innovasiyaların formalaşması və tətbiqi imkanlarının təyin edilməsini zəruri edir və məqalənin mövzusunun aktuallığını göstərir. Bu baxımdan, tədqiqat işində "innovativ iqtisadiyyatın formalaşması üçün biznesdə uğurlu innovasiya strategiyası fərqli fürsət və problemləri balanslaşdırmağı, riskləri idarə etməyi və uzunmüddətli perspektivə fokuslanmağı zəruri edir" müddəası tərəfimizdən müzakirəyə çıxarılır. Bu müddəanın təsdiq edilməsi üçün həm nəzəri yanaşmaların, həm Azərbaycanın biznes sahəsində innovasiyalarla bağlı real vəziyyətin təhlilini qarşımıza vəzifə kimi qoyuruq. Tədqiqat işində müqayisəli təhlil, qruplaşdırma və sintez metodlarından istifadə edilir. Tədqiqatın nəzəri əhəmiyyəti innovasiya iqtisadiyyatının formalaşmasına təsir edən biznes sistemində innovasiyalar üçün imkanlar və problemlər haqqında elmi yanaşmanı genişləndirməkdən ibarətdir. Praktiki əhəmiyyət ondan ibarətdir ki, innovasiya fəaliyyəti ilə bağlı irəli sürülən nəticələr Azərbaycanda innovativ iqtisadiyyatın qurulmasında və biznesin rəqabət qabiliyyətinin artırılması problemlərinin öyrənilməsi zamanı mühüm əhəmiyyət kəsb edə bilər.



**Açar sözlər:** *innovasiya, amil, şərt, fürsət, təhdid, milli iqtisadiyyat, rəqabətqabiliyyətlilik*


**Возможности и проблемы для инноваций в бизнес-системах**

**РЕЗЮМЕ**


Бизнес-система — это гибкая система, способная адаптироваться к меняющимся условиям путем интеграции множества бизнес-процессов, выполняемых организационным подразделением для достижения стратегических целей. В широком смысле она служит решению проблем, постановке задач и получению максимальной прибыли, как и любая другая система, способная действовать в любых экономических, административно-организационных и рыночных условиях. Развитие бизнес-системы – это также непрерывный процесс улучшения ее качества. Это повышает значимость бизнес-системы в развитии инновационного потенциала Азербайджана, что делает необходимым определение возможностей формирования и применения инноваций в бизнес-системе и показывает актуальность темы статьи. необходимо балансировать, управлять рисками и ориентироваться на

долгосрочную перспективу», — обсуждается нами. Для подтверждения этого положения мы поставили перед собой задачу проанализировать как теоретические подходы, так и реальную ситуацию, связанную с инновациями в бизнес-сфере Азербайджана. В исследовательской работе используются методы сравнительного анализа, группировки и синтеза. Теоретическая значимость исследования заключается в расширении научного подхода к возможностям и проблемам инноваций в бизнес-системе, которые влияют на формирование инновационной экономики. Практическая значимость заключается в том, что выдвинутые результаты инновационной деятельности могут иметь значение при становлении инновационной экономики в Азербайджане и при изучении проблем повышения конкурентоспособности бизнеса.

**Ключевые слова:** *инновация, фактор, условие, возможность, угроза, национальная экономика, конкурентоспособность.*

**Opportunities and Challenges for Innovations in Business Systems**
**SUMMARY**

A business system is a flexible system that can adapt to changing conditions by integrating multiple business processes performed by an organizational unit to achieve strategic goals. In a broad sense, it serves to solve problems, set goals and obtain maximum profit, like any other system that can operate in any economic, administrative, organizational and market conditions. The development of a business system is also a continuous process of improving its quality. This increases the importance of the business system in the development of the innovative potential of Azerbaijan, which makes it necessary to determine the possibilities of forming and applying innovations in the business system and shows the relevance of the topic of the article. it is necessary to balance, manage risks and focus on the long term," we discuss. To confirm this position, we set ourselves the task of analyzing both theoretical approaches and the real situation related to innovations in the business sphere of Azerbaijan. The research paper uses the methods of comparative analysis, grouping and synthesis. The theoretical significance of the study lies in expanding the scientific approach to the opportunities and problems of innovation in the business system, which affect the formation of an innovative economy. The practical significance lies in the fact that the proposed results of innovative activity can be important in the formation of an innovative economy in Azerbaijan and in studying the problems of increasing business competitiveness.

**Keywords:** *innovation, factor, condition, opportunity, threat, national economy, competitiveness.*